BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ
MƏRKƏZİ

TƏHLİL

# "Körfəz qatarı" dəmir yolu layihəsinin əhəmiyyəti

Lalə Xəlilzadə

Mirza İbrahimov 8, Baku, AZ1005, Azerbaijan,
(+994 12) 596-82-39, (+994 12) 596-82-41
E-mail: info@aircenter.az, www.aircenter.az

MAY 2023

# “KÖRFƏZ QATARI” DƏMİR YOLU LAYİHƏSİNİN ƏHƏMİYYƏTİ

## Giriş

Son illər dəyişən geosiyasi vəziyyət fonunda beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizlərinin artan rolu, o cümlədən COVID-19 pandemiyasından sonra beynəlxalq uçuşların məhdudlaşdırılması və logistik təchizatın pozulması Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ölkələrini alternativ nəqliyyat dəhlizlərini gündəmə gətirməyə sövq etdi. Bu baxımdan KƏŞ ölkələri 2009-cu ildə təsdiq olunan, lakin icra işlərinə başlanılmayan “Körfəz qatarı” layihəsini icra etmək qərarına gəldilər.

Ərəb Körfəzi regionunda yerləşən ölkələrin zəngin neft və qaz ehtiyyatları onların iqtisadiyyatının təməlini təşkil edir. Buna baxmayaraq bu ölkələrin qeyri-neft sektorunda zəiflik müşahidə olunur. Bu səbəbdən Körfəz ölkələri öz strateji dəyərlərini artırmaq və bu istiqamətdə regional oyunçu olmaq məqsədi ilə həm də qeyri-neft sektorunun inkişafına ehtiyac duyurlar. Bu eyni zamanda Körfəz ölkələri arasında inteqrasiya prosesini sürtələndirmə ehtiyacından irəli gəlir.

Bu layihənin son illərdə əhəmiyyətinin artması həm də Körfəz ölkələrinin qeyri-neft ticarətini inkişaf etdirmək zərurətindən meydana çıxdı. Bu baxımdan “Körfəz qatarı” layihəsinin yüklər üçün hava və dəniz daşımalarına alternativ nəqliyyat olaraq qeyri-neft ticarətinə dəstək olacağı gözlənilir. Habelə KƏŞ-in ölkələrarası gömrük ittifaqı və ümumi bazar yaratmaq planları da gündəmdədir. Hazırda icra işləri davam edən layihə tamamlandıqdan sonra qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsini stimullaşdıracaq.

Təhlildə bu layihənin KƏŞ ölkələrinin artan inkişafı üçün mümkün gözləntiləri, məqsədləri, perspektivləri ilə yanaşı, habelə digər beynəlxalq dəhlizlərlə inteqrasiya olunacağı təqdirdə region üçün gələcək təsirləri araşdırılıb.

## “Körfəz qatarı” dəmir yolu layihəsinin əhəmiyyəti

**“Körfəz qatarı”** kimi tanınan dəmir yolu layihəsi Körfəz Əməkdaşlıq Şurasına (KƏŞ) üzv olan altı ölkəni (Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Küveyt, Oman, Bəhreyn) birləşdirən milli dəmir yolu şəbəkələri ilə uyğunlaşan inteqrasiya olunmuş layihədir. Layihə 2009-cu ilin dekabrında KƏŞ-in Küveytdə keçirilən 30-cu sammitində təsdiq edilib. Altı ölkəni **2177 km** dəmir yolu xətti ilə birləşdirməyi hədəfləyən layihənin

dəyəri **250 milyard ABŞ dolları həcmində qiymətləndirilir**.[1] KƏŞ ölkələrini dəmir yolu xətti ilə birləşdirməsi baxımından **ilk** olacaq bu dəmir yolu xətti iki dənizin sahili, üç səhra, iki su yolu və bir dağ silsiləsindən keçəcək. **Bu, Asiyada ikinci ən böyük dəmir yolu xəttidir.**[2]

Bölgənin bütün ölkələrini birləşdirəcək dəmir yolu sistemi ilə bağlı ilk planlar **1998-ci ildə** Birləşmiş Millətlər Təşkilatının (BMT) Livanda keçirilən iclasında Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) tərəfindən hazırlanmışdır. 2003-cü ilə qədər Suriya, İraq, Misir və İordaniyanı birləşdirən dəmir yolu sistemi, eləcə də, Səudiyyə Ərəbistanının Dammam və Ər-Riyad şəhərlərini birləşdirən 400 km-lik dəmir yolu sistemləri istisna olmaqla Yaxın Şərqin heç bir ölkəsində dəmir yolu sistemi mövcud olmamışdır.

Lakin **2008-2009-cu illərdə** neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi iqtisadiyyatı neft gəlirlərindən asılı olan bu ölkələrin dəmir yolu layihəsinin yenidən gündəmə gətirilərək təsdiqlənməsini zəruri qıldı.




<u>KƏŞ ölkələrini birləşdirən "Körfəz qatarı" dəmir yolu xətti</u>

**"Körfəz qatarı" layihəsinin məqsədləri:**

- 2177 km-lik dəmiryolu xətti vasitəsilə altı Körfəz ölkəsini birləşdirmək;

[1] Körfəz Əməkdaşlıq Şurasının Baş Katibliyi şuraya üzv ölkələrin dəmir yolu layihəsini nəzərdən keçirir, 15.10.2014,Küveyt.<4D6963726F736F667420506F776572506F696E74202D20DAD1D620E3D4D1E6DA20D3DFC920C7E1CDCFEDCF202DE6D2D1C7C120C7E1E4DEE12DE3CECAD5D12D31382DC7E1DFE6EDCA2D313520C3DFCAE6C8D12032303134E32E707074205B526561642D4F6E6C795D205B436F6D7061746962696C6974792 (gcc-sg.org)

[2] قطر قد تسقط من أضخم ثاني سكة حديد بالقارة – Qitənin ikinci ən böyük dəmir yolu xətti, 30.10.2021. https://www.youtube.com/watch?v=8-oKgdaBqUc&t=6s

- Regionun gələcək iqtisadi inkişafına töhfə vermək;
- KƏŞ-ə üzv ölkələr arasında ticarət mübadiləsini və kommersiya hərəkətini asanlaşdırmaq;
- Bu ölkələr arasında milli dəmir yolu şəbəkələrinə uyğun olaraq turistlərin və sərnişinlərin daşınmasını həyata keçirməklə turizmin inkişafına töhfə vermək;
- KƏŞ-də iri şəhərlər və limanlar arasında nəqliyyat vaxtlarını və xərclərini azaltmaqla, ticarət axınının sürətlənməsinə və investisiyaların cəlb edilməsinə şərait yaratmaq;
- KƏŞ ölkələrinin vətəndaşları üçün iş imkanlarının təmin edilməsinə, institusional bacarıqların yaradılmasına töhfə vermək;
- Nəqliyyatda karbon emissiyalarını maksimum azaltmaq.

**KƏŞ ölkələrinin bu layihədən mümkün gözləntiləri**

Körfəz ölkələrinin bu dəmir yolu şəbəkəsindən ən böyük gözləntilərindən biri **turizm sektoru** ilə bağlıdır. Belə ki, Səudiyyə Ərəbistanı "Vision 2030" çərçivəsində turizmin ÜDM töhfəsini 10%-dən çox artırmağa ümid edir. Bu rəqəmlə Krallıq 2019-cu ildən 2030-cu ilə kimi turist sayını **20,3 milyondan 100 milyona** çatdırmağı hədəfləyir. Bu yolla səyahət vaxtlarının qısaldılması turizm sektorunun inkişafına dəstək olacaq digər amildir.[3]

İqtisadi gözləntilərə gəlincə, BƏƏ rəsmiləri layihəyə qoyulacaq 50 milyard dirhəm (13,6 milyard ABŞ dolları) sərmayenin iqtisadiyyata təxminən 200 milyard dirhəm (54,5 milyard ABŞ dolları) gəlir gətirəcəyini bildiriblər. Region və kəndlərin daha böyük şəhərlərlə inteqrasiyası isə inkişaf etməmiş ölkələrdə böyük iqtisadi imkanların yaranmasına səbəb olacaq. Bununla yanaşı, saatda 200 kilometrə qədər sürətlə hərəkət edən qatarların hər il 10 milyona yaxın insan və milyonlarla ton yükü daşıması gözlənilir. Habelə, avtomobil və yük maşınlarının qatarlarla əvəzlənməsi ilə nəqliyyatda karbon emissiyalarının 70-80% azalacağı gözlənilir.[4]

Qeyd etsək ki, KƏŞ ölkələri arasında faktiki olaraq heç bir ticarət maneəsi yoxdur, lakin bu ölkələr arasında qeyri-neft ticarəti zəif olaraq qalmaqdadır. Bu baxımdan "Körfəz qatarı" layihəsinin yüklər üçün hava və dəniz daşımalarına alternativ nəqliyyat olaraq **qeyri-neft ticarətinə dəstək olacağı gözləntilər sırasındadır.** Həmçinin bu layihə 80 mindən çox yeni iş yerinin yaradılmasına şərait yaradacaq.[5]

---

[3] https://oxfordbusinessgroup.com/articles-interviews/how-the-gcc-railway-could-revolutionise-trade-and-transport-in-the-gulf 11.05.2022

[4] Qatarlar Fars körfəzinin səpələnmiş ölkələrindən keçəcəkmi? 29.06.2020 https://vestikavkaza.ru/analytics/pojdut-li-poezda-cerez-razroznennye-strany-persidskogo-zaliva.html

[5] قطار الخليج يوفر أكثر من 80 ألف وظيفة - Körfəz qatarı 80 mindən çox iş yeri təmin edir, 25.04.2016. قطار الخليج يوفر أكثر من 80 ألف وظيفة - الخليج الجديد (thenewkhalij.news)

## “Körfəz qatarı” layihəsinin gecikmə səbəbləri

Dəmir yolu şəbəkəsinin öncə 2018-ci ildə tamamlanacağı planlansa da, işlər 2021-ci ilə təxirə salınmışdır. Qətər, Səudiyyə Ərəbistanı, BƏƏ və Oman arasında dəmir yolu əlaqələrinin yaradılmasını əhatə edən birinci mərhələ 2021-ci ilə qədər tamamlanmalı, Bəhreyn və Küveyt 2023-cü ilə qədər bu şəbəkəyə qoşulmalı idilər.[6] Lakin hazırki göstəricilərə görə layihənin **heç bir mərhələsi tamamlanmayıb.**

“Körfəz qatarı”nın icrasının bir neçə dəfə təxirə salınması bu səbəblərlə izah oluna bilər:

- Dünya iqtisadiyyatında 2009-cu ildə başlayan və sonrakı illərə sirayət edən iqtisadi böhran;[7]
- “Ərəb baharı”nın Körfəz ölkələri arasında siyasi münasibətlərə mənfi təsiri;
- 2014-cü ildə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi;
- 2017-2021-ci illər ərzində Qətərin Səudiyyə Ərəbistanı, BƏƏ, Bəhreyn kimi regional həmkarları tərəfindən iqtisadi blokadaya salınması;[8]
- 2020-ci ildə Koronavirus (COVID-19) pandemiyası nəticəsində yaranan iqtisadi təzyiqlər;[9]

## “Körfəz qatarı” layihəsinin əhəmiyyətinin yenidən artması

2020-ci ildə dünyanın COVID-19 pandemiyası ilə üzləşməsi səbəbindən beynəlxalq uçuşların məhdudlaşdırılması və logistik təchizatın pozulması bir çox ölkələrin nəqliyyat və logistika təhlükəsizliyinə yenidən baxmasına zəmin yaratmışdır. **Həmin ilin iyun ayında** KƏŞ-in iqtisadi inkişaf üzrə Baş katib köməkçisi Xəlifə bin Səid əl-Abri Körfəz dəmir yolu şəbəkəsinin **2025-ci ilə qədər istifadəyə veriləcəyini elan etmişdir.[10]**

Körfəz dəmir yolu xətti layihəsi 2021-ci ilin dekabr ayında KƏŞ liderlərinin layihənin koordinasiyasına nəzarət edəcək qurum olan **Körfəz Əməkdaşlıq Şurasının (GCC) Dəmiryolu İdarəsinin yaradılmasını təsdiqləməsi ilə əhəmiyyətli təkan aldı.[11]**

---

6 مشروع ’قطار الخليج’ أين وصل العمل فيه؟.. أمانة المجلس تناقش المستجدات - “Körfəz qatarı” layihəsi üzrə işlər hansı mərhələdədir?.. Şuranın katibliyi gedişatı müzakirə edir, 19.01.2023. مشروع ’قطار الخليج’ أين وصل العمل فيه؟.. أمانة المجلس تناقش المستجدات - الشبيبة | آخر أخبار سلطنة عمان المحلية وأخبار العالم (shabiba.com)

7 Avropa Şurası Körfəz Dəmir Yolları layihəsinin inkişafı ilə bağlı xülasələri nəzərdən keçirir, 22.01.2023. هيئة أوروبية تتلقى ملخصا حول مستجدات مشروع سكك حديد الخليج - الخليج الجديد (thenewkhalij.news)

8 صحيفة سعودية: قطار الخليج ينطلق 2023 ولن يمر في قطر -Səudiyyə qəzeti: Körfəz qatarı 2023-cü ildə istismara veriləcək və Qətərdən keçməyəcək, 06.07.2020. https://thenewkhalij.news/article/197034/صحيفة-سعودية-قطار-الخليج-ينطلق-عام-2023-ولن-يمر-في-قطر

9 كيف يمكن للسكك الحديد الخليجية إحداث ثورة في التجارة والنقل في المنطقة؟ - Körfəz dəmir yollu xətti regionda ticarət və nəqliyyatda necə inqilab edə bilər?, 12.05.2022. كيف يمكن للسكك الحديد الخليجية إحداث ثورة في التجارة والنقل في المنطقة؟ - Economy Middle East

10 Körfəz qatarı.. ümidevrici layihə və davamlı iqtisadiyyat üçün vahid stansiyalar, 25.11.2020. قطار الخليج .. مشروع واعد ومخططات الوحدة الاقتصادية متواصلة (mena-studies.org)

11 تقدم مشاريع المدى المنظور لقطارات دول الخليج في 2023 - 2023-cü ildə Körfəz ölkələrinin yaxın gələcək üçün qatar layihələri təqdim olunur, 28.02.2023. تقدم مشاريع قطارات دول الخليج في المدى المنظور في 2023 (economymiddleeast.com)

Körfəzdə dəmir yolu infrastrukturu üçün potensial əhəmiyyətli inkişafı təmsil edən bu layihənin plana uyğun olaraq öncə şimalda paytaxt Küveytdən başlayaraq Səudiyyə Ərəbistanının sahilyanı Cübeyl və Dəmmam şəhərlərindən, daha sonra Bəhreynin paytaxtı Manama və Qətərin paytaxtı Dohadan keçəcəyi nəzərdə tutulur. Dəmir yolu xətti daha sonra Səudiyyə Ərəbistanına dönərək Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) keçəcək və burada Əbu-Dabi, Dubay və Fuceyrə kimi böyük şəhərlərdən keçərək Omanın paytaxtı Maskatda son dayanacağına çatacaq. [12]




<u>Dəmir yolu xəttinin regiondaxili keçid planı</u>

Küveyti Maskata qədər digər ərəb ölkələri ilə birləşdirəcək **ümumi uzunluğu 2117 km** təşkil edəcək bu dəmir yolu xəttində sərnişin qatarlarının sürəti saatda **140 mil/ 220 km-ə,** yük qatarlarının sürəti saatda təxminən **75 mil/ 120 km-ə** çatacaq.[13] Körfəz dəmir yolları şəbəkəsindən istifadə edən sərnişin sayının **2050-ci ilə qədər ildə təxminən 8 milyon sərnişinə** çatacağı gözlənilir.[14]

“Körfəz qatarı” layihəsinin KƏŞ ölkələri üzrə dəmir yolu məsafəsi:

| ***Ölkə*** | ***Dəmir yolunun ümumi məsafəsi*** |
|---|---|
| Birləşmiş Ərəb Əmirlikləri | 684 km |

[12] Körfəz Əməkdaşlıq Şurasının Baş Katibliyi şuraya üzv ölkələrin dəmir yolu layihəsini nəzərdən keçirir, 15.10.2014,Küveythttps://www.gccsg.org/arsa/CooperationAndAchievements/Projects/Railway/Pages/ProjectVisualPresentation.aspx

[13] مشروع ’قطار الخليج’ أين وصل العمل فيه؟.. أمانة المجلس تناقش المستجدات - “Körfəz qatarı” layihəsi üzrə işlər hansı mərhələdədir?.. Şuranın katibliyi gedişatı müzakirə edir, 19.01.2023. مشروع ’قطار الخليج’ أين وصل العمل فيه؟.. أمانة المجلس تناقش المستجدات - الشبيبة | آخر أخبار سلطنة عمان المحلية وأخبار العالم (shabiba.com)

[14] مشروع السكك الحديدية لدول مجلس التعاون الخليجي - Körfəz Əməkdaşlıq Şurası ölkələrinin dəmir yolu layihəsi, 04-07-2022. مشروع السكك الحديدية لدول مجلس التعاون الخليجي | وزارة المواصلات والاتصالات (mtt.gov.bh)

| | |
|---|---|
| Səudiyyə Ərəbistanı Krallığı | 663 km |
| Oman | 306 km |
| Qətər | 283 km |
| Küveyt | 145 km |
| Bəhreyn | 36 km |
| Ümumi | 2117 km |

**Şəbəkənin əsas elementi Oman körfəzindən Ərəb körfəzinə qədər Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) boyunca uzanan 1200 kilometrlik, 11 milyard dollar dəyərində yük və sərnişin dəmir yolu olan "Ettihad" dəmir yoludur.** Hazırda tikinti işlərinin icra olunduğu BƏƏ-nin ilk milli beynəlxalq dəmir yolu şəbəkəsi iki mərhələdə tikilir. Birinci mərhələ 2016-cı ildə tamamlanıb və Əbu-Dabidəki Həbşan və Şah rayonlarından Ruveys limanına qədər 264 kilometr məsafəni əhatə edir. Layihənin ikinci mərhələsi BƏƏ-nin 11 şəhərini əhatə etməkdədir. Tikinti işlərinin səhrada aparılması, tikinti sahələrində havanın temperaturunun yüksək olması, qum küləklərinin tikinti işlərinə maneəsi tikinti işlərinin ləng getməsinə səbəb olurdu. Bu baxımdan "Ettihad" şirkəti bu işdə daha təcrübəli olan Çin, Mavritaniya və Səudiyyə Ərəbistanının təcrübəsindən faydalandı. Belə ki, şirkət bu ölkələrin qum təpələrini gilə çevirmək, qum axınının hərəkətini izləyərək küləyin qarşısını almaqda bitki divarlarının hörülməsi təcrübəsindən faydalanaraq işlərin icrasını sürətləndirmişdir.




<u>"Körfəz qatarı" layihəsinin əsas elementi olan BƏƏ - "Ettihad" dəmir yolu xətti</u>

## **“Körfəz qatarı”na beynəlxalq maraqlar**

### ***Türkiyə***

2022-ci ilin 19 sentyabr tarixində Türkiyə-Qətər İş Şurasının sədri Barış Arıoğlu Türkiyədə qətərli jurnalistlərin suallarını cavablayarkən “Körfəz Qatarı” dəmir yolu xəttinin İraq vasitəsilə Türkiyəyə qədər uzana biləcəyini bildirmişdir. B. Arıoğlu bu layihəni “*Regionda infrastruktur baxımından dönüş nöqtəsi olan layihə*” olaraq adlandırmışdır. [15]

Hazırda Türkiyə ilə İraq arasında birbaşa dəmir yolu əlaqəsinin qurulması gündəmdədir. **Belə ki, artıq Əl-Fao limanından Bağdad, Kərkük, Ərbil, Mosul, Duhok, oradan da Nusaybinə və Türkiyəyə dəmir yollarının çəkilməsi üçün Bağdad və Ankara ilə müqavilə layihəsi imzalanıb.** Bu dəmir yolu Küveytə də birləşdiriləcək. Həmçinin ötən ilin may ayında Kürdüstan Regional Hökumətinin Baş naziri Məsrur Bərzani İraq, Türkiyə və Körfəz ölkələri arasında bölgədə ticarət potensialını artıracaq regional dəmir yolu şəbəkəsinin yaradılması ilə bağlı danışıqların aparıldığını bildirib.[16]

### ***Rusiya***

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Körfəzin ərəb ölkələri istiqamətində davam etdirilməsi Körfəz ölkələri ilə Rusiya arasında əməkdaşlığın gücləndirilməsi proqramına uyğun gəlir. Artıq bu dəhliz vasitəsi ilə Rusiya mallarının ərəb ölkələrinə tədarükü həyata keçirilir. Belə ki, Rusiya istehsalı olan avadanlıqlar Həştərxandan Birləşmiş Ərəb Əmirliləринə (BƏƏ) tədarük edilir. Bir müddət əvvəl isə Rusiya istehsalı olan avtomobil texnikası İranın Növşəhr limanı vasitəsilə BƏƏ-yə çatmışdır.
Bu kontekstdən məsələyə yanaşaraq, “Körfəz Qatarı” dəmir yolu xəttinin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə inteqrasiya olunacağı halda, Rusiya ilə Körfəz ölkələri arasında ticarət əlaqələrinin yeni səviyyəyə qalxacağını söyləmək olar.

### ***İran***

İranın ərəb ölkələri ilə sürətlə möhkəmlənən əlaqələri Körfəz Dəmir Yolu layihəsinin "Şimal-Cənub" İTC-yə inteqrasiya olunacağı ehtimalına əsas verir. Məlum olduğu kimi, İran "Şimal-Cənub" dəhlizinin mühüm hissəsi olaraq özünün nəqliyyat-logistika rolunu daha da artırmağa çalışır. **Həmçinin son dövr ərzində İran və Körfəz ölkələri arasında mühüm normallaşma əlaqələrinin müşahidə olunmasından sonra, İranın bu layihənin bir hissəsi olacağını da ehtimal etmək olar.**

Onu da qeyd edək ki, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə Türkiyə arasında İran ərazisindən keçən logistik marşrut çəkilib. Yük daşımaları BƏƏ-nin Şarja (al-Sharjah) limanından İranın

[15] Türkiye-Katar İş Konseyi Başkanı Arıoğlu: Körfez Demiryolu projesi Türkiye'ye kadar uzayabilir, 20.09.2022. Türkiye-Katar İş Konseyi Başkanı Arıoğlu: Körfez Demiryolu projesi Türkiye'ye kadar uzayabilir (t24.com.tr)
[16] العراق يشرع في مدّ خط سكة حديد يربط بغداد بتركيا - İraq Bağdadı Türkiyə ilə birləşdirən dəmir yolunun tikintisinə başlayır, 21.12.2021. العراق يشرع في مدّ خط سكة حديد يربط بغداد بتركيا (aa.com.tr)

Bandar Abbas limanına gələrək buradan tırlar vasitəsilə İran və Türkiyə arasındakı Bazərgan-Gürbulaq sərhəd keçid məntəqəsi və əks istiqamətdə həyata keçirilir.[17]




BƏƏ ilə Türkiyə arasında İran ərazisindən keçən logistik marşrut xətti

Bununla yanaşı, İranın nəqliyyat-logistika sahəsində rolunu artırmaq istiqamətində məqsədlərindən digəri yüklərin Azərbaycan və Gürcüstan vasitəsilə Qara dənizə, daha sonra isə Avropa İttifaqı (Aİ) ölkələrinə çatdırılması üçün nəzərdə tutulan "İran-Qara dəniz" marşrutudur. Bununla ölkə ərazisindən keçən nəqliyyat və logistika dəhlizlərinin inkişafı ilə Tehranın beynəlxalq xarici ticarət əlaqələrində rolunun güclənəcəyini deyə bilərik.

Bu kontekstdə Körfəz dəmir yolu xəttinin istifadəyə verilməsindən sonra İranın bu layihəyə maraq göstərəcəyi gözlənilir. Xüsusilə son aylarda İran və Səudiyyə Ərəbistanı arasında yüksək templə irəliləyən münasibətlər bunu deməyə əsas verir.

Həmçinin onu da qeyd etmək yerinə düşər ki, İran Xəzər dənizi ilə Körfəzi birləşdirmək niyyətindədir. Plana görə bu dəmiryolu Ərəb Körfəzindən başlayaraq Şimal-Cənub dəhlizi çərçivəsində Azərbaycana birləşəcək. Bütövlükdə region üçün kifayət qədər əhəmiyyətli olan bu layihənin həyata keçirilməsi isə hazırda sual altındadır.

**Azərbaycana təsirləri**

Son dönəm Azərbaycanın "Şərq-Qərb" dəhlizi üzrə yükdaşımalarda əhəmiyyəti artmışdır. Bunun 2 səbəbi var:

1. Azərbaycanın uzun illərdir nəqliyyat infrastrukturu üçün qoyduğu sərmayə;

---

[17] طريق تجاري يربط الإمارات بتركيا عبر إيران.. فما تأثيره على مصر؟ - BƏƏ-ni İran vasitəsilə Türkiyə ilə birləşdirən ticarət yolu.. Misirə təsiri nədir?, 29.11.2021. طريق تجاري يربط الإمارات بتركيا عبر إيران.. فما تأثيره على مصر؟ | أخبار سياسة | الجزيرة نت (aljazeera.net)

2. Regionda baş verən geosiyasi hadisələr.

Bu baxımdan Azərbaycan həm **“Şərq-Qərb”,** həm də **"Şimal-Cənub"** dəhlizlərində mühüm yer tutur. **“Şərq-Qərb” dəhlizi**nin əsasını Orta dəhliz təşkil edir. Bu istiqamətdə Azərbaycan qonşu ölkələri olan Qazaxıstan, Qırğızıstan, Türkmənistan, habelə qərb qonşuları olan Türkiyə və Gürcüstan ilə əhəmiyyətli müqavilələr imzalmışdır. Bu istiqamətdə Xəzər sahillərindən başlayaraq Türkiyənin Qars şəhərinə qədər uzanan Bakı-Tiflis-Qars dəmir yolu xətti tamamlanmışdır. Hal-hazırda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu layihəsində işlər icra olunmaqdadır. Həmçinin yükdaşımalarda yük miqdarının artırılması, tariflərin və yol vergilərinin azaldılaraq ölkələr arasında ortaq tarifin yaradılması əsas hədəflərdir. Bu istiqamətdə bu yolun Türkiyə vasitəsilə İraq üzərindən keçməsi mümkündür.

İkinci dəhliz **"Şimal-Cənub" dəhlizi**dir. Rusiya-Ukrayna müharibəsindən sonra bu dəhlizin əhəmiyyəti artmışdır. Belə ki, Rusiya nəqliyyat yollarına Avropa İttifaqı (Aİ) tərəfindən sanksiya tətbiq olunduğu üçün Moskva yükdaşıma üçün alternativ yol axtarır. Qeyd edək ki, Rusiya-İran-Azərbaycan arasında imzalan "Şimal-Cənub" dəhlizinin ilk bəyannaməsinə uyğun olaraq Azərbaycan öz üzərinə düşən öhdəliyi yerinə yetirsə də, İran Rəşt-Astara xəttinin tikilməsi ilə bağlı öhdəliyini yerinə yetirməmişdir.

Onu da qeyd edək ki, Azərbaycanın Qarabağ Zəfərindən sonra İran "Şimal-Cənub" dəhlizinin istiqamətini dəyişdirmək üçün siyasi fəaliyyət həyata keçirmişdir. Bu baxımdan İran Ermənistan-Gürcüstan-Qara dəniz xəttinə üstünlük vermişdir. Bu isə nə Azərbaycan, nə də Rusiya tərəfindən xoş qarşılanmamışdır. Bu səbəbdən Azərbaycan və Rusiya "Şimal-Cənub" dəhlizinin istiqamətini dəyişdirmişdir ki, bu da Gürcüstan və İraq üzərindən Körfəz ölkələrinə və oradan da açıq dənizə çıxış imkanı yaradır. **Beləliklə “Şərq-Qərb” dəhlizi kimi "Şimal-Cənub" dəhlizi də “Körfəz qatarı” layihəsinə inteqrasiya oluna bilər.** Bu isə İranın və Ermənistanın ortaq layihəsini iki qat uğursuz olmasına səbəb ola bilər.

Deyə bilərik ki, həm “Şərq-Qərb”, həm də "Şimal-Cənub dəhlizlərinin Azərbaycan vasitəsilə “Körfəz qatarı” layihəsi ilə inteqrasiyası Rusiya ilə ərəb ölkələri, habelə Mərkəzi Asiya ilə ərəb ölkələri arasındakı yükdaşımalarda Azərbaycanın rolunu artıracaq. Bu, eyni zamanda Azərbaycanın özünün də ərəb ölkələri ilə ticarət, nəqliyyat və strateji əlaqələrinin artmasına xidmət edəcək. Bu kontekstdə həmin layihə regionlararası əməkdaşlığın artırılmasına xidmət edə bilər.







Bakı-Tiflis-Qars dəmir yolu xətti

"Körfəz qatarı" dəmir yolu xətti

**Nəticə**

"Körfəz qatarı" layihəsi Ərəb Körfəzinin altı ölkəsini birləşdirərək həm sərnişinlər, həm də yüklər üçün hava və dəniz daşımalarına alternativ nəqliyyat seçimi olması baxımından üstünlüyə malikdir. Bu dəmir yolu Körfəz ölkələrinin vahid birlik kimi əməkdaşlıq etmələrinə şərait yaratmaqla yanaşı, KƏŞ-ə üzv ölkələr arasında ticarət mübadiləsini və kommersiya hərəkətini asanlaşdıracaq, ölkələrarası milli dəmir yolu şəbəkələrinə uyğun olaraq turistlərin və sərnişinlərin daşınmasını həyata keçirməklə turizmin inkişafına əhəmiyyətli töhfə verəcək. Həmçinin KƏŞ-də iri şəhərlər və limanlar arasında nəqliyyat vaxtlarını və xərclərini azaldaraq ticarət axınının sürətlənməsinə və investisiyaların cəlb edilməsinə şərait yaradacaq.

Hazırda tikinti işlərinin icra olunduğu bu dəmir yolu xəttinin minlərlə iş yerinin açılmasına şərait yaratmaqla institusional bacarıqların yaradılmasına töhfə verəcəyi gözlənilir. O cümlədən, nəqliyyatda karbon emissiyaları maksimum azalacaq ki, bu da ətraf mühitin qorunması və təhlükəsizliyi üçün təminat yaradacaq. "Körfəz qatarı" layihəsinin ən böyük gözləntilərindən biri **ölkə limanlarını istehsal mərkəzləri ilə birləşdirməyə kömək edərək daşıma vaxtlarını və xərclərini minimuma endirməsi, regionda iqtisadi artım və inkişafa əhəmiyyətli töhfə verməsidir.**

BƏƏ rəsmiləri layihəyə qoyulacaq sərmayənin iqtisadiyyata təxminən üç dəfə çox gəlir gətirəcəyini bildiriblər. Region və kəndlərin daha böyük şəhərlərlə inteqrasiyası isə inkişaf etməmiş ölkələrdə böyük iqtisadi imkanların yaranmasına səbəb olacaq.

Səudiyyə Ərəbistanına gəlincə Krallıq regionda mövcud olan ən böyük dəmir yolu şəbəkəsinə malikdir və son illərdə ölkədə bəzi böyük layihələr uğurla tamamlanıb. 2018-ci ildə ölkənin Məkkə və Mədinə şəhərlərini birləşdirən yüksək sürətli dəmir yolu xətti istifadəyə verilib. Səudiyyə Ərəbistanının digər və ən əhəmiyyətli dəmir yolu layihəsi ölkənin Qırmızı dəniz sahilindəki limanlarını Ərəb körfəzindəki limanlarla birləşdirəcək 1300 km-lik **Quru Körpüsüdür.** Tikintisinə 2022-ci ildə başlanan körpünün 2026-cı ildə tamamlanması planlaşdırılır. Layihəsinin dəyəri 7-26 milyard dollar arasındadır və Çin şirkəti ilə ortaq şəkildə hazırlanır. Beləliklə Səudiyyə Ərəbistanının 2025-ci ilə qədər dəmir yolu infrastrukturuna ildə 11 milyard dollar xərcləyəcəyi təxmin edilir. Nəticədə isə bundan daha artıq gəlir gətirəcəyi gözlənilir. Səudiyyə Ərəbistanının digər gözləntisi bu layihənin turizm sektorunun inkişafına əhəmiyyətli töhfə verəcəyidir. Saatda 200 kilometrə qədər sürətlə hərəkət edən qatarların hər il 10 milyona yaxın insan və milyonlarla ton yükü daşıması gözlənilir. Həm BƏƏ, həm də Səudiyyə Ərəbistanının iqtisadi strategiyalarında mərkəzi rol oynayan turizm sektorunun inkişafı, şübhəsiz ki, göstərilən sərnişin xidmətləri ilə daha da artacaq.

KƏŞ ölkələri arasında faktiki olaraq heç bir ticarət maneəsi olmasa da, bu ölkələr arasında qeyri-neft ticarətində zəiflik müşahidə olunur. Bu baxımdan "Körfəz qatarı" layihəsinin yüklər üçün hava və dəniz daşımalarına alternativ nəqliyyat olaraq qeyri-neft ticarətinə dəstək olacağı gözləntilər sırasındadır. Habelə ölkələrarası gömrük ittifaqı və ümumi bazar yaratmaq planları da gündəmdədir.

Strateji əhəmiyyətə malik olan "Körfəz qatarı" dəmir yolu layihəsi əhəmiyyətli rəqabət üstünlükləri qazanaraq regionda mühüm gücə malik olan **Türkiyə, Rusiya, İran** kimi ölkələrin maraq dairəsinə daxil oldu. Bu ölkələrin ərəb ölkələri ilə nəqliyyat dəhlizləri vasitəsilə müəyyən ticarət əlaqələri mövcuddur. Məsələn, Rusiya malları **"Şimal-Cənub"** nəqliyyat dəhlizi vasitəsilə Həştərxandan Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) tədarük edilir. Habelə BƏƏ ilə Türkiyə arasında İran ərazisindən keçən logistik marşrut xətti çəkilib. Yük daşımaları **BƏƏ-nin Şarja (al-Sharjah) limanından İranın Bandar Abbas limanına** gələrək buradan tırlar vasitəsilə İran və Türkiyə arasındakı Bazərgan-Gürbulaq sərhəd keçid məntəqəsi və əks istiqamətdə həyata keçirilir. Beləliklə, bu kontekstdən məsələyə yanaşaraq, bu ölkələrin nəqliyyat dəhlizlərinin "Körfəz qatarı" layihəsinə inteqrasiyasının onların hər birinin proqramına uyğun gəldiyini söyləmək olar.

Habelə Azərbaycanın həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" dəhlizlərində mühüm yer tutması "Körfəz qatarı" layihəsinin bu beynəlxalq dəhlizlərlə inteqrasiyasının Azərbaycanın ərəb ölkələri ilə ticarət, nəqliyyat və strateji əlaqələrinin inkişafına xidmət edəcəyini gözləmək olar.

**"Körfəz qatarı" layihəsini KƏŞ-ə üzv ölkələri regionun mühüm nəqliyyat qovşağı olaraq birləşdirməsi kontekstindən perspektivli layihə hesab etmək olar. Bu nəqliyyat qovşağı iqtisadiyyatı neft gəlirlərindən asılı olan bu ölkələrin həm də ticarət və turizm**

**potensialını artırmalarına töhfə verəcək. Bununla yanaşı, regionda mühüm gücə malik olan ölkələrin bu layihəyə maraq göstərmələri gələcəkdə "Körfəz qatarı" dəmir yolu xətti layihəsinin digər İTC-lərlə inteqrasiya olunaraq regionda mühüm strateji nəqliyyat qovşağı olacağını deməyə əsas verir.**

**Müəllif: Lalə Xəlilzadə, aparıcı məsləhətçi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi**